# Cəbhədə olmağıyla qürur duyan igid snayper

**Tariximizin ən şərəfli səhifəsi olan 44 günlük haqq savaşımızda qanı bahasına əsir Qarabağımızı azad edib bizə zəfər sevincini yaşadan minlərlə Vətən qeyrətli oğlumuz oldu. Cəlilabadın Üçtəpə kəndində dünyaya göz açan Elməddin Vəlişov da onlardan birdir.**

İndi adı hər bir azərbaycanlının dilində qazanılan parlaq qələbəmizin mərdlik, qəhrəmanlıq simvolu kimi səslənən Elməddin şəhid olanda ömrünün 24-cü ilini yaşayırdı. Şücaəti gələcək nəsillər üçün örnək olacaq. Layiq görüldüyü "Vətən uğrunda", Cəbrayılın, Qubadlının azad olunmasına görə və "Cəsur döyüşçü" medalları sübut edir ki, Vətən sevgisi əzəldən Elməddinin ruhuna, canını, qanına hopub.



Köksündə həyat eşqi çağlayan, amalı qurub-yaratmaq olan, Vətəninin maraqlarını hər şeydən üstün tutan, işğal altında qalan Qarabağımızın acısını çəkən Elməddin Fuad oğlu Vəlişov orduya yola düşüb. Vətən, torpaq sevgisi, onu tezliklə əsgərlərin, zabitlərin yanında üzüağ edib, özünə hörmət qazanıb. Cəbhə bölgəsinin əsgəri olmaqla qürur duyan Elməddin cəbhədə snayperçi olub.

Elməddin doğma Azərbaycana, dövlətinə ləyaqətlə, vicdanla xidmət edib, 2016-ci ildə ordudan tərxis olunub. Bir müddət ilahiyyatçı olaraq çalışıb. Digər gördüyü işlərdə də ürəyinin genişlıyi, ruhunun saflığı, insanlara olan məhəbbəti özünü göstərib. Özündən kiçiklərə də halal yaşamağı, sevgidə, dostluqda, vəfalı olmağı, milləti, Vətəni sevməyi tövsiyə edib. Əməli saleh övlad olaraq Cəlilabadda ad qoyub. Tovuz hadisələri zamanı səfərbərlik xidmətinə müraciət edərək, döyüşlərə yollanmaq üçün adını könüllülər sırasına yazdırıb və məkrli düşmənlə sona qədər vuruşub qisasını alacağına and içib. Vətənə sevgisindən doğan arzusu bir qədər gecikse də, İkinci Qarabağ savaşı başlanan kimi snayper kimi düşmənə ilk zərbəni Füzulidə endirib. Hər an Vətən, torpaq uğrunda canını fəda etməyə hazır olan, döyüşdən-döyüşə bərkiyən igid əsgər Cəbrayılda xüsusi şücaət göstərib. Bu torpağa üçrəngli qələbə bayrağımızı sancanlardan olub. Daha sonra Xocavəndin azadlığı uğrunda savaşlarda düşmənin kabusuna çevrilməklə onlarla canlı qüvvəsini, hərbi texnikasını məhv edib. Elməddinin son döyüşü Qubadlı istiqamətində olub. Vətən, torpaq sevgisi Cəlilabad elinin qəhrəman oğlunu qələbəyə bir addım qalmış arzu etdiyi müqəddəs şəhidlik zirvəsinə yüksəldib.

**Zəfər ORUCOĞLU.**